UOT 81.34

# İŞGÜZAR VƏ AKADEMİK MÜHİTDƏ DÜZGÜN NİTQDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

[1,3]**Rahilə Mirzəli qızı Məmmədova,** [2,3]**Svetlana Arif qızı Nəsibli**
[1]filologiya üzrə fəlsəfə doktoru
rahila.mammadova@mdu.edu.az
[2]svetlana.nasibli@mdu.edu.az
[3]Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *Məqalədə işgüzar və akademik nitqin cəmiyyətdə rolu və əhəmiyyətindən, həmçinin şəxslərin ünsiyyət prosesində qarşılaşdıqları problemlərdən bəhs edilir. Nitq hər bir insanın xasiyyəti, bilik, bacarıq, vərdişi kimi fərqlidir və fərdidir. İstər kiçikyaşlı, istərsə də böyükyaşlı şəxslərin nitqi individuallığa malik olduğundan işgüzar və akademik mühitdə düzgün nitqlə çıxış etməyinə diqqət ayırmaq vacib məsələdir. İşgüzar mühitdə, şəxsi həyatımızda, akademik fəaliyyətdə özümüzü doğru şəkildə ifadə edə bilmək, təqdimatımızı ən yaxşı, dolğun, yaddaqalan formada nəzərə çatdırmaq uğurumuzu artıracaq əsas nüansdır. Başqalarının bizi maraqla dinləməsini təmin etmək üçün qüsursuz danışıq qabiliyyətinə, düzgün ünsiyyət qaydalarına malik olmağı hədəfləməliyik.*

*Müasir dövrdə şəxslərin verbal nitqində (oxu, yazı, danışma, dinləmə) kifayət qədər qüsurlar vardır. Bu onların Azərbaycan dilinin qrammatik və normativ qaydalarını, ədəbi dilin normalarını, mədəni nitqin tələblərini və kommunikativ ünsiyyətin şərtlərini yaxşı bilməmələrindən irəli gəlir. Ünsiyyət insanlar arasında təmasın yaranması və inkişafına xidmət edir. Bu məntiqlə yanaşsaq, heç bir kollektiv öz üzvləri arasında normal ünsiyyət yaratmadan birgə fəaliyyəti həyata keçirə bilməz. Bu prosesdə məsələlərin tərəflərin maraqlarını təmin edə biləcək səviyyədə həlli ünsiyyətin düzgün qurulmasından asılıdır. Bu isə nitqi məntiqi və dilçilik baxımından tələb olunan şərtlərə uyğun ifadə etməklə mümkündür. Məqalədə bu problemlər və onların həlli variantlarından bəhs edilmişdir.*

***Açar sözlər:*** *nitq,akademik nitq, işgüzar nitq, oxu, yazı, danışma, dinləmə, təqdimat, tələffüz, ünsiyyət, fikir, düzgünlük, problem, yazılı nitq, şifahi nitq*

*“Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir.”*
*(Ümummilli lider Heydər Əliyev)*

## Giriş

Azərbaycan dilinin qrammatik və normativ qaydalarına, mədəni nitqin tələblərinə və ədəbi dilin normalarına uyğun şəkildə ünsiyyət hər kəsin, xüsusilə də təhsilalanların əsas vəzifələrindəndir. Müasir dövrdə təhsilalanların verbal nitqində (oxu, yazı, danışma, dinləmə) kifayət qədər qüsurlar vardır. Bu qüsurları şagirdlərin dərs prosesində şeir və hekayəni danışarkən, həmçinin yazıda və tələffüzdə normativ qrammatik qaydaları gözləmədikləri anda, tələbələrin konfranslardakı məruzə və çıxışlarında, yazı nümunələrində, ünsiyyət zamanı fikirlərini ifadə etməyə çalışdıqda və s. müşahidə etmək mümkündür. Çox aktual olan bu mövzu ilə bağlı ətraflı tədqiqat aparmağa ehtiyac vardır.

Bəhs olunan mövzunun tədqiqat obyekti işgüzar və akademik mühitdə cəmiyyət üzvləri arasında ünsiyyət bacarığının araşdırılması, tədqiqat predmeti isə tərəflərin verbal nitqindəki problemləri və onların səbəblərini, həlli yollarını göstərməkdir.

Dil və nitq eyni bir hadisənin nitq fəaliyyətinin bir-biri ilə qarşılıqlı əlaqədə olan iki cəhətidir. Nitqin aydınlığı və təsirli ola bilməsi üçün dil, öz növbəsində dilin mövcudluğu üçün – nitq zəruridir. Hər hansı dilin sistemini yalnız nitqdəki təzahürünə görə müəyyənləşdirmək olur. Nitq nəinki dili təzahür etdirir, həm də onu inkişaf etdirir, formalaşdırır [1, s. 99].

## Nitqimiz imicimizi formalaşdırır

Nitq hər bir insanın xasiyyəti, bilik, bacarıq, vərdişi kimi fərqlidir və fərdidir. İstər kiçikyaşlı, istərsə də böyükyaşlı şəxslərin nitqi individuallığa malik olduğundan işgüzar və akademik mühitdə düzgün nitqlə çıxış etməyinə diqqət ayırmaq vacib məsələdir. Müasir dövrdə şagird, tələbə, hətta ortayaşlı şəxslərin dilindən aşağıdakı ifadələri çox eşidirik:

1) danışmağa səbrim çatmır, sözləri tez deyib səhnədən "qaçmaq" istəyirəm;

2) mövzunu, məzmunu yaxşı bilməyimə baxmayaraq, nitq söyləmək zamanı hər şeyi unudub pis vəziyyətə düşürəm;

3) danışanda həyəcanlanıram, özümü itirirəm, deyəcəklərim dilimin ucunda ikən sanki deyə bilmirəm;

4) səsimi, nitqimi heç cür bəyənmirəm, kompleksə düşürəm;

5) səhnədə çıxış etmək, nitq söyləmək mənim üçün qorxuludur. Özümlə bacarmıram.

Bütün bu ifadələri ətrafımızda çox eşitmişik. Təbii ki, bu siyahını artırmaq mümkündür. Ancaq yuxarıdakı beş maddə, həqiqətən də, sübut edir ki, dövrümüzün yeniyetmə, həmçinin gənclərinin nitqində çatışmazlıqlar çoxdur və bu da bizlər üçün həyəcan təbili çalmağa əsasdır.

Bildiyimiz kimi, işgüzar mühitdə, şəxsi həyatımızda, akademik fəaliyyətdə özümüzü doğru şəkildə ifadə edə bilmək, təqdimatımızı ən yaxşı, dolğun, yaddaqalan formada nəzərə çatdırmaq uğurumuzu artıracaq əsas nüansdır. Bu uğura nail olmaq isə hər şeydən əvvəl bizim nitqimizdən asılıdır. Başqalarının bizi maraqla dinləməsini təmin etmək üçün qüsursuz danışıq qabiliyyətinə, düzgün ünsiyyət qaydalarına malik olmağı hədəfləməliyik. Müasir dövrün gənci, ola bilər ki, potensiallı mütəxəssisdir, ancaq həmin şəxsin nitqində fikir, məna ardıcıllığı, məntiq, rabitə, dəqiqlik tələbi yoxdursa, gözlənilmirsə, o, işgüzar mühitdə çox yaxşı biznesmen və ya istənilən səviyyədə nüfuz sahibi kimi xatırlana bilməyəcək. Necə ki, ilk təqdimatda görünüş, imicimiz gərəkli vasitədirsə, bizim haqqımızda fikir formalaşdırırsa, nitqimiz də qarşı tərəfdə o cür müsbət və ya mənfi rəy formalaşdırmağa qadirdir.

Düzgün danışmaq və tələffüz qaydalarını bilmək cəmiyyətin bütün sferalarında başlıca faktordur. Bu mənada "Nitqimiz bizim imicimizi formalaşdırır" – desək, yanılmarıq. Dilin fonetik, leksik, qrammatik normalarını gözləməklə, nitq mədəniyyəti tələblərinə riayət etməklə gənc nəsil məhz nitqini, ünsiyyətini qüsursuz şəkildə qurmağa nail olmalıdır. Bunun üçün ilk olaraq iş orta ümumtəhsil məktəblərindən başlanmalı, daha sonra ali məktəblərdə uğurla davam etdirilməli və mövzuya, məqsədə uyğun müvafiq təlim-seminarlardan faydalanmaq gərəkdir.

Cəmiyyət qarşısında dayanan ümumbəşəri problemlərdən biri məhz uşaq, yeniyetmə, gənclərin nitqi məsələsidir. Təəssüf edirik ki, bu aktual məsələ təhsil sahəsində hələ diqqət mərkəzində olmayan bir məqamdır. Ancaq valideyn – Azərbaycan dili müəllimi – nitq təlimçisi interaktiv əlaqəsi nəticəsində uşaq, yeniyetmə və gənclərdə gözəl, rəvan, məntiqli, düzgün nitq formalaşdırmaq vacib məsələdir. Doğrudur, hər kəs natiq ola bilməz, amma hamı nitqini düzgün, dolğun, təbii şəkildə ifadə etməyə qadir olmağı bacarmalıdır. Bunun üçün cəmiyyət üzvlərində potensial var. Həvəs, maraq, doğru istiqamətləndirməklə gənc nəsli, o cümlədən nitqini mükəmməl vəziyyətə salmaq istəyənləri bu səviyyəyə çatdırmaq mümkün ola bilər.

**Gözəl nitq ünsiyyət körpüsüdür**

Məşhur yunan natiqi Demosfenin sitatında deyilir: "Bir şüşə qabın çatlaq olub-olmadığı necə onun səsindən anlaşılırsa, bir insanın ağıllı və yaxud axmaq olduğu da onun ağzından çıxan kəlmələrlə aydın olur". Bəli, həqiqətən də, belədir. Bu, bir reallıqdır ki, gözəl nitqlə fikir söyləmək ən savadsız, təhsilsiz insanı belə müsbət dəyərləndirməyə təsir edir. Boşuna deməyiblər ki, gözəl nitq ünsiyyət körpüsüdür. O körpüdən keçmək üçün ilk olaraq nəzərə çarpan probelmlər aşkarlanmalı və ona uyğun həll variantları təklif edilməlidir. Bu problem və həlli variantlarını aşağıdakı kimi sıralaya bilərik:

1) fikirlərin istər yazılı, istərsə də şifahi nitqdə düzgün şəkildə ifadə olunmaması;

2) yazılı materialı oxuyarkən durğu işarələri, fasilə və intonasiya tələblərinin pozulması;

3) danışarkən sözləri düzgün tələffüz etmir, özlərini itirir, tez həyəcanlanırlar;

4) dinləmək mədəniyyəti faiz göstəricisi ilə qeyd etsək, çox aşağıdır;

5) şifahi nitqdə mədəni nitq etiketlərindən (zəhmət olmasa, xahiş edirəm, mümkündürsə, imkan olarsa və s. tipli ifadələrdən) istifadəyə riayət etmirlər

Öyrənənlərin verbal nitqindəki problemlərin səbəblərindən biri də söz ehtiyatının olması ilə bağlıdr. Təhsilalanların əksəriyyətində bu halla qarşılaşmaq mümkündür. Öyrənənlər bəzi hallarda onlara verilən sualları öz şəxsi fikirləri ilə cavablandırmaqda çətinlik çəkir, sadəcə kitabdan əzbərlədiklərini təkrar etməklə kifayətlənirlər. Bu çatışmazığın əsas səbəbi məhz onların söz ehtiyatı və cümlə qurmaq bacarığının zəif olmasıdır. Ona görə də təhsilalanlara düzgün cümlə qurmaq bacarığı və lüğətlərlə işləmək vərdişləri aşılanmalıdır. Məzmun və qrammatik cəhətdən fənn müəllimi şagirdlərə aşağıdakı vərdişləri aşılamağı qarşıya məqsəd qoymalıdır:

a) yazılı nitqdə orfoqrafiya qaydalarının tələblərinə riayət etmək;

b) şifahi ünsiyyət prosesində orfoepiya qaydalarının tələblərinə uyğun davranmaq və şifahi nitqin inkişafı məqsədilə kiçikhəcmli mətnlərin oxusunu təşkil etmək;

c) dərslikdəki mətndən seçilmiş sözlərdən istifadə edərək yeni mətn qurmaq;

d) bir sıra söz birləşmələri tərtib etmək və onları nitqdə ifadə etmək;

e) cümlədə yersiz təkrarlara yol verməmək üçün sözlərin sinonim variantlarından düzgün istifadə bacarığı;

f) şeir, hekayə, nağıl, qəzet, məqalə və s. oxumaq.

Bu qaydalar ibtidai sinifdən başlayaraq, məqsədli şəkildə icra olunarsa, şagirdlərin verbal nitqindəkisöz bazası zənginləşmiş və hərtərəfli fikir ifadə etməyə qadir olacaqdır.

Orta ümumtəhsil məktəblərində "Azərbaycan dili və nitq mədəniyyəti" və ya "Ünsiyyət qaydaları" fənləri ayrıca tədris olunmasa da, bu bölmələrin bəzi hissələrinə "Azərbaycan dili" – "Ədəbiyyat" fənlərində tədris olunan mövzuların tərkibində saat ayrılmaqdadır. Ümumiyyətlə, nitq inkişafı məsələlərinə kiçikyaşlı uşaqlar üçün ailə və bağça yaşlarından bünövrə qoyulmalıdır. Son dövrlərdə məktəbəqədər təhsil müəssisələrində tədris proqramında azyaşlılar üçün "Ətraf aləmlə tanışlıq və nitq inkişafı", "Savad təlimi və nitq inkişafı" fənlərinin tədrisi müsbət qiymətləndirilə bilər. Şifahi nitq yaranma etibarilə yazılı nitqdən daha əvvəl formalaşıb. Uşaq yazıya nisbətən danışıqdan daha çox istifadə etdiyi üçün şifahi nitqə əhəmiyyət verərək, onu doğru istiqamətləndirmək qarşıda aktual məqsəd olmalıdır.

**Nitq prosesi ümumilikdə mürəkkəb və psixofizioloji prosesdir**

Fəal və şüurlu nitq prosesində insanın nitq aparatı sayılan fəal və qeyri-fəal olmaqla iki yerə ayrılan bədən üzvləri iştirak edir. Elmi ədəbiyyatlarda nitq orqanlarına ağciyərlər, nəfəs borusu, qırtlaq, səs telləri, ağız boşluğu, burun boşluğu, dil, diş, dodaqlar aid edilir. Bunlardan dil, dişlər, dodaqlar, səs telləri ən fəal üzvlər sırasına daxildir. Nitq prosesi təfəkkürlə əlaqəli olduğundan bu prosesi, şərti olaraq, həm də psixi proses adlandırmaq mümkündür. Çünki insanın dəqiq, məntiqli, ifadəli nitqə yiyələnməsi yalnız nitq texnikası və tələblərindən asılı olmayıb, onun fikir, hiss, təxəyyül, iradə kimi psixi fəaliyyətlərindən asılıdır. Məsələn, təsəvvür edək ki, səhərdir, işə gedirik. Yolda istənməyən kiçik bir qəza baş verdi. Bu, təbii hal olaraq auramıza öz növbəsində mənfi təsirini göstərəcək. İş yerinə daxil olarkən, hansısa iclasa gedərkən həmin yaşanılan hadisə istər-istəməz şüuraltı reaksiya ilə bizim nitqimizə, ünsiyyət şəklimizə təsirsiz yan keçməyəcək.

Müasir dövrdə ünsiyyət vərdişləri aşılamağın təsirli vasitəsi kimi sosial-psixoloji treninqlərdən istifadə olunur. Özünüdərketmə, ünsiyyət və qarşılıqlı təsir vərdişlərinin formalaşması sahəsində qrup metodlarının tətbiqi onun əsas vəzifəsini təşkil edir. Sosial-psixoloji treninq prosesində başlıca vasitə kimi müxtəlif modifikasiyalarda tətbiq edilən qrup diskussiyasından və rollu oyunlardan istifadə olunur.

Ünsiyyət prosesində insanlar bir-birinə müxtəlif yollarla psixoloji təsir göstərirlər. Sosial psixologiyada, bir ənənə olaraq, psixoloji sirayət, təlqin, inandırma, təqlid kimi vasitələri fərqləndirirlər. Bir çox hallarda şayiə, moda kimi xüsusi fenomenlər də psixoloji təsir vasitələri sırasında nəzərdən keçirilir. Hətta lazım olarsa, nitqində yuxarıda sadaladığımız qüsurlar olan şagird və tələbələrlə fərdi şəkildə fikir mübadiləsi aparmaq, nitqindəki problemlərin həlli yollarını da məhz həmin faktora görə müəyyənləşdirmək gərəklidir. Sadalanan verbal nitq problemlərinə görə yazılı nitq vərdişlərini formalaşdıracaq materiallar, sənədlər, yazı mətnləri üzərində iş aparmaq, şifahi

nitqi zənginləşdirmək üçün lüğətlərlə iş metodundan istifadə, danışmaq və dinləmək mədəniyyəti formalaşdırmaq istiqamətində işlər görmək daha effektiv nəticəyə imkan yaradar [3, s. 89].

Danışmaq və dinləmək məqsədyönlü, şüurlu, qarşılıqlı proses olduğundan öyrənənlərə nitq bacarığı ilə birlikdə dinləmə mədəniyyəti də öyrədilməlidir. Elmi ədəbiyyatda yuxarıda adları sadalanan "çətin dinləyici" tipləri ilə üzləşdikdə danışan təslimçilik mövqeyində durmalı deyil. Əksinə, bu tiplərin hər birinə qarşı münasibətdə spesifik yanaşma metodlarından istifadə etmək lazım gəlir. "Çətin dinləyici"ni öz istəyinə uyğun "kökləmək" üçün standart təsir mexanizmi olmasa da, danışan bunu müxtəlif suallar şəklində reallaşdırmağa çalışmalıdır.

İşgüzar kommunikasiyada danışıq bacarığının formalaşdırılması və inkişaf etdirilməsi mühüm rol oynayır. Danışıqlar yalnız o halda öz məqsədinə çata bilər ki, iştirakçılar problemin həllinin birgə axtarışına can atmaqda səmimidirlər. Bu cəhətdən işgüzar kommunikasiya adi ünsiyyətdən fərqli olaraq məqsədlidir [5, s. 78-79].

**Elmi nitq**

Akademik kommunikasiyanın əsasını elmi nitq təşkil edir. Elmi nitq dedikdə, burada mürəkkəb və çətin cümlələrdən çox və gərəksiz şəkildə istifadə etmək nəzərdə tutulmamalıdır. Elmilik məzmunu saxlamaqla fikri daha effektiv üsul, vasitələrlə dəqiq, konkret, lakonik ifadə etməyə xidmət etməlidir. Akademik kommunikasiyanın bazası olan elmi nitq əsasən ümumtəhsil məktəblərində, o cümlədən ibtidai siniflərdə Azərbaycan dili fənninin tərkibində məqsədli və sistemli tədris edilməklə öyrənənlərin şifahi-yazılı akademik nitq mədəniyyəti qaydalarının formalaşdırılmasına dair ciddi iş görülməlidir. Bu nöqteyi-nəzərdən Azərbaycan dili fənninin təlim və tədris xüsusiyyətləri sırasına aşağıdakılar aiddir:

- nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq inkişafını təmin etmək;
- dildən şifahi və yazılı şəkildə fərdi olaraq ustalıqla istifadə etmək vərdişinə öyrənənləri yiyələndirmək;
- dil qaydalarından praktik istiqamətdə istifadə etməklə elmi, düzgün, təmiz, aydın nitq bacarıqlarını təkmilləşdirmək.

Bugünkü səviyyədə məktəblilərin və eləcə də gənc nəslin nitqində olduqca vacib problemlərdən biri də söz ehtiyatının, lüğət bazasının passiv olmasıdır. Bunu nəzərə alaraq müəllimlərin müxtəlif yaş qruplarında olan öyrənənlərə lüğət üzrə işin təşkilinə diqqət yetirmələri tövsiyə edilir.

Şagirdlərin lüğət ehtiyatına yiyələnmələri üçün yeni sözlərin mənalarının araşdırılması, sözlərin düzgün yazılışı və tələffüzü və s. üzrə çalışma, test, tapşırıqlar əsasında iş təşkil etmək məqsədəuyğun olar. Həmçinin ibtidai siniflərdə müvafiq çalışmaları onlara tapşırıq verməklə öyrənənlərin söz bazasının və fikri ifadəetmə fəallığının formalaşmasına nail olmaq mümkündür. Tapşırıqlar aşağıdakı şərtlər üzrə hazırlana bilər:

- nöqtələrin yerinə müvafiq sözləri seçib yazın;
- verilmiş sözlərdən kiçik hekayə qurun;
- isim və sifətlərdən cümlələr qurun;
- feillərdən istifadə etməklə cümlələri tamamlayın və s.

Bu cür tapşırıqlar həm şagirdlərin dil qaydalarını yaxşı mənimsəmələrinə, həm də nitq, fikir fəallığının yaranmasına xidmət etmiş olacaqdır.

Ədəbi tələffüz vərdişlərinə təkmil şəkildə sahiblənmək bir neçə günə həll edilə bilən məsələ deyil və bu sahədə müntəzəm iş aparılmalıdır. Şagirdlər səs-hərf dəyişmələrini, intonasiyanı, fasilə və sintaqmları, vurğuları fərqləndirən şərti işarələri bilməli, bədii və ya elmi mətnləri şərti işarələrlə qeyd etməyə alışdırılmalıdırlar [2, s. 277].

Bu işi daha da uğurlu etmək və nəticə əldə etmək məqsədilə yuxarı siniflərdə Azərbaycan dili fənnindən belə çalışmaların işlədilməsi daha uyğun olar:

- cümlə qurmaq vərdişlərinin inkişafı üzrə aparılan işlər;
- suallar və cavablarla iş;
- buraxılmış sözləri yerinə qoymaqla cümlələri tamamlamaq;
- söz birləşmələri tərtib etmək və bunları cümlələrdə işlətmək;

- sadə cümlələrdən mürəkkəb cümlələr tərtib etmək;
- mətndən seçilmiş ifadə və sözləri yeni mətndə işlətmək.

Ancaq onu da qeyd etməliyik ki, məktəblərdə bu cür tapşırıqların işlədilməsinə istənilən səviyyədə yer verilmir. Halbuki belə işlərin təşkil olunması həm öyrənənlərin cümlə qurmaq vərdişlərini möhkəmləndirər, həm də onların tənqidi təfəkkürünü, mühakimə yürütmək bacarığını tam formalaşdırar.

Ali məktəblərin tədris proqramına salınmış və hazırda tədris olunan "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin tədrisinin məqsədi tələbələrdə şifahi və yazılı işgüzar və akademik kommunikasiya vərdişlərini formalaşdırmaqdır. İşgüzar və akademik kommunikasiya nəzəriyyəsi və təcrübəsi sahəsində biliklər vermək, işgüzar kommunikasiyanın ən təsirli üsulları və formalarına əsaslanaraq, gələcəkdə tələbələrə peşəkar fəaliyyətlərini həyata keçirməyə imkan verəcək kommunikativ səlahiyyətləri formalaşdırmaq və inkişaf etdirmək də bu fənnin əsas məqsədlərindən sayılır [4, s. 57].

**Nəticə**

İşgüzar və akademik kommunikasiyanın cəmiyyətdə çox böyük rolu var. Sual-cavablar, keçirilən elmi konfranslar, seminarlar, disputlar, elmi mübahisələr bu fənnin inkişafına, yüksək səviyyəli kommunikativ bilik və bacarıqların təbliğinə yönəlib. Ən başlıcası isə bu cür tədbirlər işgüzar və akademik kommunikasiyanın inkişafına təkan verir. Məlumdur ki, cəmiyyət inkişaf etdikcə informasiya bolluğu yaranır.

Dünyada baş verən hadisələrin şərhi, daxili xəbərlər, rəsmi xronika, iqtisadi icmallar və s. ünsiyyət mədəniyyətinin inkişafına xeyli kömək göstərir, xalqın dünyagörüşünü zənginləşdirir. Bu məntiqlə yanaşsaq, "Azərbaycan dilində işgüzar və akademik kommunikasıya" fənninin tədrisi birbaşa cəmiyyətə xidmət edir, onun maraqlarına və mənafeyinə hesablanıb. Çünki Azərbaycan dilində normal, məntiqli, sistemli, aydın və elmi cəhətdən sanballı işgüzar və akademik kommunikasiya aparmaq vərdişlərinə yiyələnmək hər bir tələbənin nitq bacarıqlarını artıracaq, Azərbaycan xalqının minilliklər boyu sahib olduğu dəyərlərin yaşamasına, digər tərəfdən isə cəmiyyətin inkişafına və tərəqqisinə xidmət edəcək.

## İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları (dərs vəsaiti). Bakı: ADPU nəşriyyatı, 2013, 277 s.
2. Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Qismət, 2014, 384 s.
3. Cəfərov V. Diplomatik etiket və nitq mədəniyyəti. Bakı: BDU, 2009, 175 s.
4. Əbdülhəsənli T., Kazımova F., Allahverdiyev C. İşgüzar yazışmalar (dərs vəsaiti). Bakı: ADİU, 2017, 250 s.
5. Məmmədli N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya (dərslik). Bakı: Elm və təhsil, 2021, 512 s.

## THE IMPORTANCE OF USING PROPER SPEECH IN BUSINESS AND ACADEMIC CONTEXT

**[1,2]R.Mammadova, [2]S.Nasibli**
[1]doctor of Philosophy in Philology
[2]Mingachevir State University

***Abstract:*** *The article discusses the role and importance of business and academic speech in society, as well as the problems faced by individuals in the process of communication. Speech is different and individual, like each person's character, knowledge, skills, and habits. Since the speech of both young and older adults has indivudality, it is important to pay attention to accurate speech in business and academic contexts. Being able to express ourselves properly in the business*

*environment, in our personal life, in academic activites, and to consider our presentation in the best, complete, and memorable form is the main nuance that will increase our success. To ensure that others listen to us with interest, we should aim to have excellent speaking ability and correct communication rules.*

*In the modern period, there are enough defects in the verbal speech of people (reading, writing, speaking, listening). It is because they do not know the grammatical and normative rules of the Azerbaijani language, the norms of the literary language, the requirements of cultural speech and the conditions of communicative communication. Communication serves the creation and development of a connection between people. Thus, no cooperative unit can carry out collaborative activities without proper communication between its members. The resolution of issues in this process at a level that can benefit the parties interests depends on the accurate establishment of communication. It is possible by expressing the speech according to the conditions required according to logic and linguistics. The article discusses these problems and solution possibilities.*

***Keywords:*** *speech, academic speech, business speech, reading, writing, speaking, listening, presentation, pronunciation, communication, opinion, correctness, problem, writen speech, oral speech*

## ВАЖНОСТЬ ИСПОЛЬЗОВАНИЯ ПРАВИЛЬНОЙ РЕЧИ В ДЕЛОВОЙ И АКАДЕМИЧЕСКОЙ ОБСТАНОВКЕ

[1,2]**Р.М.Мамедова,** [2]**С.А.Насибли**
[1]доктор философии по филологии
[2]Мингячевирский государственный университет

***Резюме:*** *В статье говорится о роли и значении деловой и академической речи в жизни общества, а также о проблемах, с которыми сталкиваются люди в процессе общения. Речь различна и индивидуальна, как и характер, знания, умения и привычки каждого человека. Речь как молодых, так и пожилых людей имеет индивидуальность в деловой и академической среде, важно обращать внимание на правильную речь. Умение правильно выражать себя в деловой среде, в личной жизни, в учебной деятельности, доносить наша презентация в лучшем, полном и запоминающемся виде – это главный нюанс, который повысит наш успех. Для того, чтобы другие слушали нас с интересом, мы должны стремиться к безупречным навыкам разговорной речи и правильным правилам общения.*

*В современное время в устной речи людей (чтение, письмо, говорение, аудирование) достаточно дефектов, потому что они не знают грамматических и нормативных правил азербайджанского языка, норм литературного языка, требований культурного речь и условия коммуникативного общения. Общение служит созданию и развитию контакта между людьми. Если подойти к этой логике, то ни один коллектив не может осуществлять совместную деятельность без создания нормального общения между его членами. В этом процессе решение вопросов на уровне, способном удовлетворить интересы сторон, зависит от правильного установления связи. В статье рассматриваются эти проблемы и пути их решения.*

***Ключевые слова:*** *речь, академическая речь, деловая речь, чтение, письмо, говорение, аудирование, произношение, общение, мнение, правильность, проблема, письменная речь, устная речь*

**Elmi redaktor: fil.e.d., dos. F.Namazova**
**Çapa təqdim edən redaktor: tar.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 17.01.2023**
**Çapa qəbul edilib: 23.01.2023**